Mikayılov Ülvi Aydin oğlu49

# "CƏHƏNNƏM" ROMANININ OBRAZ YARADILIŞINDA AVTOBİOQRAFİZM ÇALARLARI

Bədii əsərlər müxtəlif parametrlərə görə müəyyən qruplara bölünə bilir. Burada janr müxtəlifliyi, mövzu rəngarəngliyi, əsərin real həyatı əks etdirən və ya fantastik olması götürülə bilər. Bədii mətnə oxucunun da yanaşması fərqlidir. Elə bədii əsərlər var ki, oxucu əsəri bir dəfə oxumaqla kifayətlənir. Amma elə roman və povestlərdə var ki, oxucuya bunları bir dəfə oxumaq yetərli olmur. Burada da iki məqam var. Birinci məqam odur ki, oxucu əsəri ilk oxunuşdan tam dərk etmir. İkinci məqam isə əsər fəlsəfiliklə yanaşı daha maraqlı olur. Təkrar oxunan roman və ya povest ilk baxışdan dərk edilməyən məqamları ilə belə oxucunun bədii mətnə böyük maraqla yanaşdığını göstərir.

Xalq yazıçısı İsa Muğannanın əsərləri də o qrupa aiddir ki, oxucu onları bir dəfə oxumaqla kifayətlənmir. Bu əsərlər silsiləsinə "İdeal", İdealdan sonrakı müstəqillik dövründə yazdığı əsərləri aid edilə bilər. İsa Muğannanın müstəqillik dövrü yaradıcılığına "Gur Ün", "Qəbristan", "Cəhənnəm", "İlan dərəsi", "Qırx kisə qızıl", "Türfə", "Söz yarası" əsərləri daxildir. İsa Muğanna yaradıcılığını bir dəfə səyahət etmək ona görə yetərli olmur ki, ədibin əsərlərində fəlsəfilik, tarixilik və OdƏr dili vəhdət təşkil edir. Muğanna əsərləri vasitəsi ilə OdƏr dilini təbliğ etməklə oxucusunu təhrif dildən və təhrif dünyadan uzaq durmağa çağırırdı. Əsərlərin dili və mahiyyəti dərk edilmə baxımından bir qədər çətin olsa da, çoxşaxəli məlumat almaq istəyən oxucu üçün maraqlı, maraqlı olmaqla bərabər araşdırma aparmaq üçün istiqamət verən bazadır. Ədibin yaradıcılığında tarixilik və fəlsəfiliklə bərabər bioqrafik obrazlarda üstünlük təşkil edir. Klassik Azərbaycan ədəbiyyatına da nəzər saldıqda avtobioqrafizmə rast gəlinir. Buna misal olaraq Xəqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli və başqalarını göstərmək olar. Müasir Azərbaycan ədəbiyyatında isə İsmayıl Şıxlı, Yusif Vəzir Çəmənzəminli, Sabir Əhmədli, Əzizə Cəfərzadə, İsa Muğanna və digərlərinin yaradıcılığında avtobioqrafizimlə qarşılaşırıq.

İsa Muğanna avtobioqrafik obrazları iki yöndə yaradırdı. Birinci özünün və öz tanıdıqlarının (atasının, babasının, əmilərinin) avtobioqrafiyası ilə bağlı obrazlar. İkinci yöndə isə tarixi şəxsiyyətlərin Nizami Gəncəvi, İmadəddin Nəsimi, Əmir Teymur və digərlərinin avtobioqrafiyasını bədii ədəbiyyata, gətirərək obrazlaşdırmışdır.

Hətta avtobioqrafik obrazlar yaratdığına görə yazıçı Mehdi Hüseyn Muğannanı tənbehdə etmişdir. İsa Muğanna "Həyatımdan səhifələr" adlı özünün bioqrafiyası ilə bağlı yazısında bu hadisəni belə xatırlayır.

Mehdi qağam xəstə idi. Nitroqliserin içirdi və tez-tez dəniz qırağına gedirdi. "Arx" haqqında söhbətimizdən sonra yenə nitroqliserin içdi.

-Gedək dəniz qırağına, bir az gəzinək,-dedi. Bu, 1949-cu ildə "Anadil ötən yerdə" oçerkim "Azərbaycan" jurnalında çap olunandan sonra oldu:

-Səni tənbeh eliyəcəm,-dedi,-Oçerki niyə atandan yazmısan? Çox düşünmədən dedim:

-Çünki atamı yaxşı tanıyıram.(2, səh 44)

Muğanna Mehdi Hüseynnin dediklərini həmişə eşitsə də, öz yazıçı mövqeyindən əl çəkməyərək davamlı şəkildə tanıdıqlarının avtobioqrafik obrazlarını bədii ədəbiyyata məharətlə gətirməyə davam etdi. Ədibin müstəqillik dövrünə aid olan "Cəhənnəm" romanında da yenə də avtobioqrafik obrazlarla qarşılaşırıq.

Ədib "Cəhənnəm" romanını şərti olaraq dörd yarım başlığa ayıraraq yarım başlıqların birincisini fantastikasız fantastika, sonrakı yarım başlıqları isə yenə fantastikasız fantastika adlandırmışdır. Romanın başlanğıcında Cəhənnəm deyilən, doğrudan da varmı, ya yoxdur? (1, səh 5)

Roman bu sualla başlasa da yalnız bu xətt üzrə inkişaf etmir, eyni zamanda yer planetində insanlara cəhənnəm yaşadan Bünyad bəyin Göyə (kainata) aparılaraq saflaşdırılması romanın əsas xətlərindəndir. SafAğ elmi vasitəsi ilə Bünyad bəyin beyninin təmizlənməsi mümkün olmur. Buna bəyin günahlarının həddindən artıq çox olduğu imkan vermir. Romanda digər önəmli xətt isə Səməd Əmirli ilə Bünyad bəyin söhbətidir. Səməd Əmirli oxucuya "İdeal" romanından yaxşı tanışdır. Muğanna "İdeal" əsərində olduğu kimi "Cəhənnəm" romanında da Qarayazı meşəsini geniş təsvir etmişdir. Romanın üçüncü hissəsi Aya aparılan Bünyad bəyin Yer planetinə qaytarılması ilə başlanır.

Gözlərini açanda özünü Qarayazı meşəsində, zversovxozla Muğanlı kəndinin arasındakı yolayrıcında gördü.

Dikəlib o yan-bu yana, sonra göyə baxdı. (1, səh 81)

Bu bölmənin əsas xəttini Səməd Əmirli ilə Bünyad bəy arasında Muğannalılarla bağlı söhbət təşkil edirdi. Səməd Əmirli, Bünyad bəydən Pirvəlinin, Hacıəlinin, Hüseynin, Musanın, İsa Əfəndinin və Mustafa Hüseynovun ölümləri ilə bağlı baş verənləri soruşur. Bu yerdə qeyd olunmalıdır ki, Mustafa Hüseynov, İsa Muğannanın atası, digər adları çəkilənlər isə əmiləridir. Romanda bölmələrin fantastikasız fantastika adlandırılması da OdƏr mədəniyyətindən yansımış məhfum kimi dəyərləndirilə bilər. İllər öncə İsa Muğanna müsahibələrinin birində ölüm nədir? sualına belə cavab vermişdir.

-Ölüm yoxdur. İkinci doğuluş var. SafAğ elmi tədris olunsa, ölümlü insanlar ikinci həyatın nə şəkildə başlandığını, həyatın davamını dərk edər. (4, səh 178)

İkinci doğuluş fikrini yazıçı "Cəhənnəm" romanında da müəyyən məqamlarda təsvir edir. Bu fikir Səməd Əmirli ilə Bünyad bəyin söhbətlərindədə sezilir. Məqalədə əsas tədqiqat obyekti M.Hüseynovun bioqrafiyası ilə bağlı olduğundan bu məsələlərlə bağlı geniş danışmırıq.

-Omar ağanın kiçiyini kim öldürdü?Mustafanı?!

Bəy dedi:

-Allaha and içirəm, bilmirəm! Hər halda "Qızıl İlan"lardan biri vurub. Belə deyirlər: Mustafanı qırx altıncı ildən öldürmək istəyirmişlər: (1, səh 241)

Bünyad bəyin qırxaltıncı ili xatırlaması oxucunu "İdeal" romanına aparır. Çünki Muğannalılardan olan Mədət Əmirlidə 1946-cı ilin dekabrında vəfat etmişdir. M. Hüseynovla Mədət Əmirlinin ölümündə olan oxşarlıqlar və eyniliklər deməyə əsas verir ki, "İdeal"da yaradılmış Mədət Əmirli surəti də əsərdə Mustafa Hüseynovun avtobioqrafiyası fonunda əks olunmuşdur. İdeal əsərində Lüt Cəfər kimi tanınan Qonaqlının partkomu Cəfər, Mədət Əmirlinin ölümünü Səmədə demiş və onu hadisə yerinə apardıqda ilk sözü bu olmuşdur. Qəsd işi yoxdur.

49 Baki dövlət universitetinin. Doktoranti. ulviaydin.m@gmail.com

Qaratikan yığınının yanında bir saqqız ağacının döşünü balta ilə çapıb, hamarlayıb, qızmar dəmirlə iri-iri qara hərflər basmışdılar: "Mədət Əmirli burada həlak oldu. 23 dekabr 1946-cı il"(3, səh 22)

Bünyad bəy Səmədlə söhbətində M.Hüseynovun II dünya müharibəsində uğurlu iştirakından danışsa da, ölümünü tam aydın şəkildə açmır. Romanın gedişində Səməd Bünyad bəydən yenə də Mustafanın ölümü haqqında soruşur. O da realdır ki, bu ölüm Səmədə məlum idi. Ancaq hadisəni Bünyad bəyin dilindən eşitmək istəyirdi. Səməd israrla:

-Yaxşı, bəsdi çərənlədik,-dedi-Küllüyün tarixində ən faciəli hadisələrdən biri, Omar ağanın sonbeşiyi Mustafanın ölümüdür. Pünhan Muğannamızın atası Mustafa yerdə qalsaydı, indi doxsan üç yaşında olardı. Əmma Pünhan hələ də unuda bilmir onun faciəsini. De görüm, Mustafanın taleyi haqqında nə bilirsən? Dərsi qurtarıram bununla.

-Hə?! İnanım?!

-İnan, Bəy! (1, səh 258)

Söhbətin sonrakı gedişində Bünyad bəy M.Hüseynovun təhsil alması, məktəb direktoru işləməsini vurğulayır ki, buda İsa Muğannanın atasının gerçək bioqrafiyasında da öz əksini tapır. Səməd Əmirlinin Bünyad bəyi gərgin vəziyyətdə saxlayan sualları bitmirdi. İnsanlara əzab verən Bünyad Səmədin suallarından zillət içində qıvrılaraq beyni çalxalanır və mənən cəhənnəmə düşürdü.

Səməd dedi:

-Bəs Mustafanı kim vurdu?

Bəy dedi:

-Məndən-"Çax-çux"dan başqa bu tərəflərdə "Qızıl İlan" kliçkasında bir kəşfiyyatçımız da vardı. Çox dəqiq konspirasiyada saxlanırdı. Tanımırdıq biz onu. Aldığım məlumata görə, Mustafa özündən başqa dörd nəfər işçisi ilə Ceyrançöl deyilən yerdə kolxozun örüşlərini müəyyənləşdirməyə gedirmiş. Muğanlıda kolxoz sədri idi. O vaxt-əlli üçüncü ildə gürcücə "Kuxeti" deyilən dəmir yolu stansiyasından bir az aralananda düzənlikdə "Qızıl İlan" maşının qabağına çıxıb, əlini qaldırıb ki, "saxlayın, sözüm var, Mustafaya". Mustafa "Vilis"dən düşəndə "Qızıl İlan" gözlənilmədən tapançasının küpü ilə vurub Mustafanın gicgahını deşib. Sonra maşındakılara əmr eləyib ki, maşını döndərin, Mustafanın başını maşının altına soxun. Budu. Maşındakı adamları danışdırıblar, hadisəyə "avariya" adı qoyublar. Vəssalam. (1, səh 266)

Romanda yazılan hissə ilə bağlı İsa Muğanna "Həyatımdan səhifələr" adlı bioqrafiyasında məlumat vermişdir.

Oktyabrın iyirmi üçü idi. Hadisə dünən, mən elektriçkada olanda baş vermişdi. Bunu Ağstafaya çatanda bildik Raykomun birinci katibi ilə işçiləri, hamısı Muğanlıda, dəfində iştirak edib qayıtmişdılar Birinci katib məni qəbul etdi və ağzını açan kimi ilk sözləri bu oldu.

Qəsd işi yoxdu. Sui-qəsd yoxdu.

-Elə bu sözlər məni şübhələndirdi. Sonra hadisənin təfsilatını danışdı. (2, səh 59)

Qəsd işi yoxdur ifadəsi oxucunu yenə də "İdeal" əsərinə qaytarır. Mədəd Əmirlinin ölümündən sonra Səmədə də deyilən ilk ifadə bu olmuşdur. "Cəhənnəm" romanında Mustafa Hüseynovun obrazı demək olar ki, tamamilə avtobioqrafik şəkildə veril-mişdir. Obrazı tam avtobioqrafik şəkildə əsərdə canlandırmaq yazıçıdan böyük cəsarət, səmimiyyət və yazıçı məharəti tələb edir ki, qeyd etdiyimiz keyfiyyətlərin hər üçü İsa Muğannanın şəxsi xarakterində və yazıçı qələmində hər zaman mövcud olmuşdur. Muğanna ölüm hadisəsinin təfərrüatını belə yazır:

-Baytar həkimiynən, iki çobannan Qırax Kəsəmənə gedirmiş ki, Kəsəmənin rəhbər işçiləriynən Ceyrançölə getsin, sürülərin örüş yerlərini müəyyənləşdirsin. Soyuqbulaq stansiyasından Quxet stansiyasının arasında necə olubsa maşın aşırılıb, qapının iti ucu Mustafanın gicgahına batıb.(2, səh 59)

Mustafa Hüseynovun gerçək həyatı ilə romandakı taleyi eynilik təşkil edir. Yazıçı atasının tərcümeyi halını demək olar ki, romanda olduğu kimi əks etdirmişdir. Xüsusilə də ölüm hadisəsinə diqqət etsək ən xırda detalların belə eyniliyinin şahidi oluruq. Tarixilik, fəlsəfilik və fantastikanın qovşağında yazılan "Cəhənnəm" romanı həmdə ədəbiyyatla tarixin birləşməsi əsnasında oxucuya təqdim olunur. Roman ədəbi əsər olmaqla bərabər Muğannalıların tarixi kontekstində yazılmışdır. "İdeal" və ondan sonrakı əsərlər göstərir ki İsa Hüseyinovun Muğanna imzası ilə yazması təsadüfi deyil. Xüsusi dəsti-xətti, yazıçı xarakteri olan İsa Muğannanın "Muğanna" imzası ilə yazdığı əsərlərdə OdƏr dili və mədəniyyəti ilə yanaşı Muğannalıların tarixi oxucuya əxz olunur. Xalq şairi Zəlimxan Yaqub yazılarının birində qeyd edirdi ki, təfəkkürdəki dərinlik, fikirdəki zənginlik, duyğulardakı ehtiras, sətirlərdəki yanğı, ürəkdəki çılğınlıq, xəyaldakı romantika, mənəvi göylərdəki ülvilik və ucalıq, yaradıcılıq üfüqlərindəki sonsuzluq, "Bağ"dan "Bağ"a gələn yol İsa Hüseynovu Muğannaya çevirdi.(5)

Yazıçı düşüncəsi, hüdudsuzluğu və genişliyi ilə seçilir. İsa Muğanna da isə bu keyfiyyətlərlə bahəm qeyri adilik də özünü göstərirdi. Dərin düşüncənin nəticəsi kimi yazdığı əsərlər oxucuya təqdim olunur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Muğanna İsa, "Cəhənnəm" roman, Bakı, Hədəf nəşrləri 2013, 272 səh
2. Muğanna İsa, "Həyatımdan səhifələr", "İlan dərəsi" əsərlər, povestlər, Bakı, Hədəf nəşrləri 2013, 320 səh
3. Muğanna İsa, "Seçilmiş əsərləri IV cild", "İdeal" roman, Bakı, Avrasiya press 2009, səh 576
4. Muğanna İsa, "Seçilmiş əsərləri VI cild", "Bütün planetlər arasında yeganə doğuluş planeti "Yer planetidir" Bakı, Avrasiya press 2009, səh 384
5. Yaqub Zəlimxan, "İsa Hüsynova sevgi, Muğannaya inam", 525-ci qəzet, 28 iyun 2008-ci il

Açar sözlər: İsa Muğanna, avtobioqrafizm, Mustafa Hüseynov, fantastikasız fantastika,müstəqillik dövrü, "Cəhənnəm" romanı
Key words: Isa Mughanna, autobiographism, Mustafa Huseynov, science fiction without fantasy, independence period, the novel "Hell"
Ключевые слова: Иса Муганна, автобиографизм, Мустафа Гусейнов, фантастика без фантастики, период независимости, роман «Ад»

AUTOBIOGRAPHICAL SHADES IN THE CREATION OF THE NOVEL "HELL"
SUMMARY

The novel "Hell" is a series of works related to the independence of the period of Isa Mughan. One of the main lines in the novel is to try to refine Bünyad Bey's brain, and another line is the conversation between Samet Amirli and Bunyad bey. The conversation is about the history of Mughannas and the death of Omar Agha's children.
The main research object in the novel “Hell” Isa is Mughanna’s father, autobiographical character of Mustafa Huseynov. The writer skillfully reflected certain biographical moments from his father’s life in the novel. In particular, death of Mustafa Huseynov was the same in the fiction and real life. By bringing autobiographical characters into fiction and creating the combination of history and literature, the writer presented this work to the reader.

ОТТЕНКИ АВТОБИОГРАФИЗМА В СОЗДАНИИ ОБРАЗА В РОМАНЕ «АД»
РЕЗЮМЕ

Роман «Ад» - это произведение, относящееся к творчеству Исы Муганна периода независимости. Если одной из линий романа является очистка мозгов Буньяд бека, то другая линия представляет собой разговор между Самедом Амирли и Буньяд беком. В данном разговоре повествуется об истории Муганна и смерти детей Омар ага.

Основным объектом исследования статьи является автобиографический образ отца Исы Муганна – Мустафы Гусейнова. Автор умело отобразил в романе некоторые моменты из жизни своего отца. Особенно смерть Мустафы Гусейнова составило единство между настоящей жизнью и художественной литературой. Писатель, приведя автобиографические образы в художественную литературу, создал этим единство истории и литературы, и представил читателю художественное произведение.

Rəyçi: professor Vaqif Sultanlı